

# İyul ayı üçün kiber və texnologiya xəbərləri

## Azərbaycan

### Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti yeni platforma istifadəyə verib

Yaxın günlərdə fəaliyyətinə start verilmiş “Qarabug” - informasiya təhlükəsizliyi boşluqlarının aşkarlanması platformasıdır. “www.qarabug.az” platforması kibertəhlükəsizlik sahəsinə yeni baxış gətirməklə yanaşı, sistemlərdəki zəifliklərin etik şəkildə açıqlanması mədəniyyətinin formalaşdırılması və ölkəmizdə güclü “bug bounty” ekosisteminin inkişaf etdirilməsi baxımından faydalı olacaqdır.

Mənbə: xeberler.az     11 İyul 2023

### "Kritik İnfrastruktur Müdafiə Müsabiqəsi 2023" tədbiri keçiriləcək

Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin birgə təşkilatçılığı ilə cari ilin 26-27 oktyabr tarixlərində Bakı Konqres Mərkəzində “Critical Infrastructure Defence Challenge 2023” (CIDC-2023) tədbiri keçiriləcəkdir. Tədbir dövlət qurumları, kritik infrastrukturlar, maliyyə və telekommunikasiya sektorları əməkdaşlarının informasiya təhlükəsizliyi üzrə

təcrübə, bilik və bacarıqlarının təkmilləşdirilməsi, dövlət və özəl sektorlar arası netvorkinqin və koordinasiyanın gücləndirilməsi məqsədilə təşkil olunur.

Mənbə: scis.gov.az 14 İyul 2023

## Nazirlər Kabineti “Kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi qaydaları”nı təsdiq edib

Qaydalar kritik informasiya infrastrukturuna daxil olan qurumların təhlükəsizliyinə, kibertəhlükəsizlik xidməti provayderinə qarşı tələbləri, səlahiyyətli qurumların hüquq və vəzifələrini müəyyən edir. Kritik informasiya infrastrukturu ilə bağlı əsas səlahiyyətlər DTX və Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinə məxsusdur. Özəl sektorla bağlı isə bu tip məsələlərdə səlahiyyət tam olaraq DTX-ya verilib.

Mənbə: xeberler.az 20 İyul 2023

## Xüsusi Rabitə cə İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən 6 ay ərzində zərərli virusların qarşısı alınıb

Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (XRİTDX) dövlət qurumlarının informasiya təhlükəsizliyinin təmini məqsədilə "AzstateNet" dövlət şəbəkəsində 2023-cü ilin birinci yarısında 391 milyon 630 min zərərli keçid yeni nəsil mühafizə avadanlıqları vasitəsilə, 2 milyon 808 min zərərverici virus mərkəzləşdirilmiş antivirus sistemi vasitəsilə bloklanmış, 49 min 370 virus tərkibli sənəd isə xüsusi mühafizə sistemləri vasitəsilə aşkarlanaraq dövlət qurumlarına göndərilməsinin qarşısının alınmasını həyata keçirib.

Mənbə: scis.gov.az 25 İyul 2023

## Dövlət qurumlarının əməkdaşları hakerlərin qurbanı olub

Bu ilin ikinci rübündə bir sıra dövlət qurumlarının ümumilikdə 560 əməkdaşı və vətəndaş kibergigiyena qaydalarına riayət etməyərək haker hücumlarının qurbanına çevriliblər. Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətindən verilən məlumata görə, hakerlərin ümumi qurbanlarının 34-ü dövlət qurumlarının əməkdaşları, 526-sı isə dövlət qurumlarının elektron xidmətlərindən istifadə edən vətəndaşlar olub.

Mənbə: xeberler.az 27 İyul 2023

## Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən saxta domenlərin fəaliyyətinin qarşısı alınıb

XRİTDX tərəfindən 1-ci yarımil ərzində qeydə alınmış və dövlət qurumlarından daxil olmuş məlumatlar əsasında kiberhücumların analizi ilə 582 kiberhücum indikatoru (IOC) müəyyən edilmiş və bloklanması ilə dövlət qurumlarına qarşı hazırlanmış xüsusi hədəflənmiş APT kiberhücumların qarşısı alınmışdır.

Mənbə: scis.gov.az 28 İyul 2023

# Qazaxıstan

## Qazaxıstanlılar artıq onlayn fırıldaqlar barədə məlumat verə bilərlər

2024-cü ilin sonuna qədər həyata keçirilən layihə çərçivəsində "Tibb Gəncliyi" QHT fırıldaqçılıq sxemlərinin qarşısının alınması və gənclərin maliyyə savadlılığının artırılması məqsədilə "Alayaq.net" internet portalının işini təşkil edib.

Qeyd olunur ki, sosial şəbəkələrdə "Alayaq.net" səhifələri vasitəsilə də dələduzluq halları ilə bağlı məlumatlar daxil olur. Bu günə qədər layihə təşkilatçıları mindən çox müraciəti qəbul edib və onlara baxıb.

Mənbə: profit.kz 18 İyul 2023

## Daxili İşlər Nazirliyi kibercinayətkarlıqla mübarizədən danışıb

Qeyd edilib ki, Qazaxıstan abonent nömrələrinə edilən 36 milyon şübhəli zəng bloklanıb. Daxili İşlər Nazirliyi mobil operatorların dələduzluqla mübarizə sistemlərinin məlumat bazalarının inteqrasiyasını təşkil edib. Bu tədbir beynəlxalq trafikdən keçən Qazaxıstan abunəçi nömrələrinə edilən şübhəli zəngləri tanımağa və bloklamağa imkan verib.

Mənbə: profit.kz 18 İyul 2023

## Qazaxıstanda 17 000 router potensial olaraq zəiflikdən təsirlənir

Milli Kompüter İnsidentlərinə Qarşı Mübarizə Xidməti təhlilinin nəticələrinə əsasən məlum olub ki, Qazaxıstanda 17 000 routerdə zəifliyə potensial olaraq həssasdır. Bu günə qədər 5128 routerdə zəifliyin mövcudluğunun aydın əlamətləri var.

Mənbə: profit.kz 28 İyul 2023

# Özbəkistan

## Rəqəmsal nailiyyətləri qiymətləndirmək və İT sahəsində gələcək inkişafı öyrənmək üçün Rəqəmsal Liderlik Forumu keçirilmişdir

Rəqəmsal Texnologiyalar Nazirliyinin təşəbbüsü ilə rəqəmsal xidmətlərin ixracına şərait yaratmaq məqsədilə Foruma 300-dən çox İT şirkəti, xarici təşkilatlar cəlb olunmuşdur. Bulud texnologiyaları və süni zəkanın inteqrasiyası vasitəsilə İKT infrastrukturunu gücləndirmək müzakirələr zamanı səsləndirilmişdir.

Bundan əlavə, Forum zamanı Özbəkistanda rəqəmsal marketinqi dəstəkləyən, İKT həlləri hazırlayan Marketinq və Həll Paylaşma Mərkəzinin işi təqdim olunub

və həmin Mərkəz tərəfindən rəqəmsal transformasiyanın həyata keçirilməsi üçün mütəxəssislərə məlumat verilmişdir.

Mənbə: uzdaily.uz        7 İyul 2023

# Gürcüstan

## Gürcüstanın Rəqəmsal Hökumət Agentliyi iki mühüm dövlət İT layihəsi üzərində işə başladı

Birinci layihə bütün İT layihələri üçün idarəetmə təlimatı sənədinin hazırlanmasını nəzərdə tutur ki, bu da ölkədə ilk dəfə İT layihələrinin inkişafı və idarə edilməsini standartlaşdıran tənzimləmə olacaq.

İkinci layihə hökumət üçün bir mobil tətbiqin hazırlanmasıdır ki, bu da istifadəçilərə vahid portal vasitəsilə dövlətlə bağlı bütün xidmətlərə çıxış imkanı verəcək. Rəqəmsal Hökumət Agentliyi tətbiqin çox yaxında istifadəyə veriləcəyini açıqladı.

Mənbə: dga.gov.ge        10 İyul 2023

# Qırğızıstan

## Qırğızıstanda xarici vətəndaşların onlayn qeydiyyatı sistemi işə salınıb

Qırğızıstan Milli Təhlükəsizlik Dövlət Komitəsi və Rəqəmsal İnkişaf Nazirliyi də daxil olmaqla bir çox nazirlikləri birləşdirən onlayn platforma olan Xarici Miqrasiya Qeydiyyatının Vahid Sistemini işə salıb.

Korrupsiya risklərini aradan qaldırmaq və miqrasiya monitorinqini gücləndirmək məqsədi ilə xarici vətəndaşlar, o cümlədən əmlak sahibləri Əhalinin Qeydiyyatı Departamentinin internet saytında qeydiyyatdan keçə bilərlər. Rəqəmsal İnkişaf Nazirliyi bu birgə səydə əsas rol oynamışdır.

Mənbə: 24.kg   28 İyul 2023

deloitte.az

Deloitte adı Deloitte Touche Tohmatsu Limited şəbəkəsinə daxil olan üzv şirkətlərdən birinə və ya bir neçəsinə və əlaqədar müəssisələrinə aid ola bilər. DTTL ("Deloitte Qlobal") və bu şəbəkəyə daxil olan hər bir üzv şirkət ayrı-ayrılıqda hüquqi şəxslər və müstəqil müəssisələrdir. DTTL müştərilərə xidmətlər göstərmir. Ətraflı məlumat üçün www.deloitte.com/about səhifəsinə daxil olun.

Deloitte qlobal səviyyədə audit və əminlik, konsaltinq, maliyyə, risk, vergi üzrə məsləhət xidməti və digər əlaqədar xidmətlər göstərən aparıcı markalardandır. 150-dən çox ölkədə və ərazidə xidmətlər göstərən üzv şirkətlər şəbəkəsi Fortune Global 500® üzrə beş şirkətdən dördünə öz xidmətlərini göstərir. Deloitte-un təxminən 415,000 peşəkar mütəxəssisinin təklif etdiyi fərq yaradan həllər haqqında ətraflı məlumat üçün www.deloitte.com/about səhifəsinə daxil olun.

Bu məlumatda yalnız ümumi informasiya əks olunur və Deloitte Touche Tohmatsu Limited şirkətlərindən, onun üzv şirkətlərindən və ya əlaqədar müəssisələrdən (birlikdə "Deloitte Şəbəkəsi") hər hansı biri bu məlumat vasitəsilə peşəkar məsləhətləşmə və ya xidmətlər təmin etmir. Maliyyə fəaliyyətinizə və ya müəssisənizə təsir göstərə biləcək hər hansı qərarlar qəbul etməzdən və ya tədbirlər görməzdən əvvəl peşəkar mütəxəssis ilə məsləhətləşmək daha məqsədəuyğundur. Deloitte Şəbəkəsinə daxil olan heç bir müəssisə bu məlumata istinad edən hər hansı şəxsin məruz qaldığı zərərə görə məsuliyyət daşımır.

8 Noyabr pr. 25E, Bakı Ağ Şəhər Ofis Binası
Bakı, AZ1025, Azərbaycan Respublikası

© 2023 Deloitte & Touche MMAC. Bütün hüquqlar qorunur.